**Billurə Çərkəz qızı BAYRAMOVA**
*Qərbi Kaspi Universiteti,*
*Politologiya, psixologiya və sosiologiya kafedrası, magistrant*
E-mail: billurebayramova@gmail.com

# YENİYETMƏLƏRDƏ SUİSİDAL DAVRANIŞA MEYİLLİLİYİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə.** Müəllif təqdim olunan məqalədə yeniyetmələrdə suisidal davranışa meyilliliyin psixoloji xüsusiyyətlərini müzakirə etmişdir. Suisidal davranışa meyilliliyə gətirib çıxara biləcək ailə və məktəb münasibətlərinə məqalədə əsas yer verilmişdir. Aydındır ki, hər şey ilk öncə ailədən başlayır. Ailə münasibətləri insanın həyatda yaşamaq eşqini artıra və ya azalda bilməyə qabildir. Bu prosesin davamı olaraq da məktəb həyatı yeniyetmə psixologiyasına güclü təsir edən mühitdir. Məqalədə ailə və məktəb münasibətlərinin yeniyetmənin suisidal davranışa meyilliliyinə olan təsiri ilə əlqadar olaraq aktual məsələlərin ədəbiyyat icmalı üzrə təhlili aparılmışdır. Yerli və xarici psixoloji tədqiqatlar ailə həyatının və məktəb mühitinin şəxsin suisidal davranışa meyilliliyində böyük rolu olduğunu göstərir.
**Açar sözlər:** suisidal davranış, ailə, yeniyetmə, emosional, bağlanma, məktəb

**UOT:159.9**
DOİ: https://doi.org/10.54414/UDGD1707

## Giriş

İntihar və ya suisid psixiatriya və tibbi psixologiyaya aid edilən ən əhəmiyyətli problemlərdəndir. Əhali arasında baş verən ölüm səbəbləri içərisində intihar ilk onluğa daxildir.[1] Ölüm özlüyündə həyat tsiklinin təbii sonudur, ancaq intihar isə şüur yerindəykən özünü öldürmə aktıdır. Bütün dünyada yeniyetmələrin intiharı ciddi və artan problemdir. Yeniyetməlik illəri emosional olaraq təlatümlü, stresli və başa çıxılması çətin ola bilər. Yeniyetmələr uğur qazanmaq və uyğunlaşmaq üçün müəyyən təzyiqlərlə üzləşirlər. Onlar özünə hörmət problemləri, özünə şübhə, özgüvən əksikliyi və yadlaşma hissləri ilə mübarizə apara bilərlər. Bəziləri üçün isə bütün bunlar intihar davranışını reallaşdırmağa səbəb olur.

## Əsas hissə

Yeniyetmələrin suisidal davranışa meyilliliyində bir çox psixoloji xüsusiyyətlərdən danışmaq mümkündür. Əvvəlcə bu xüsiyyətlərə ümumi bir nəzər salaq. Psixoloji xüsusiyyətlər aşağıdakı səbəblərdən qaynaqlanmaqdadır:

Uşaqlıq sui-istifadəsi, natamam ailə münasibətləri, travmatik hadisələr, dəstək şəbəkəsinin olmaması, emosional deprivasiya, depressiya, şəxsiyyət pozuntuları, sosial və ya məktəb mühitində yaşanan problemlər, digər yeniyetmə intiharlarına məruz qalmaq.

Bir yeniyetmənin intiharı düşündüyünə dair əlavə xəbərdarlıq əlamətləri aşağıda verilmişdir:

Yemək və yuxu vərdişlərində dəyişiklik, dostlardan, ailədən və müntəzəm fəaliyyətlərdən uzaqlaşma, şiddətli və ya üsyankar davranış, zorakılıq, evdən gizlicə qaçma, narkotik və spirt istifadəsi, şəxsi görünüşünə qeyri-adi laqeydliyi, davamlı cansıxıcılıq, diqqəti cəmləməkdə çətinlik və ya məktəb dərslərində keyfiyyətin aşağı düşməsi, mədə ağrısı, baş ağrısı və ya yorğunluq kimi fiziki simptomlarla bağlı tez-tez şikayətlər, tərifləri və ya mükafatları rədd etmək.

Bütün dünyada olduğu kimi ölkəmizdə də son on illər ərzində özünəqəsd halları artmaqdadır. Həm də özünəqəsd halları daha çox yeniyetmə və gəncləri əhatə etməkdədir ki, bu da bir həyəcan siqnalıdır. Yeniyetmələrdə suisidal halların baş verməsinin bir çox səbəbləri olsa da, valideynlərlə, müəllimlərlə, özyaşıdları arasında olan bullinq davranışları və dostluq münasibətlərində əmələ gələn anlaşılmazlıqlar daha çox üstünlük təşkil edir. Təlim fəaliyyətində buraxılmış səhvlər, yersiz tənqidlər və təmbehlər həssas yaş dövründə olan şagirdlərdə, yeniyetmələrdə dərin izlər buraxır və gələcəkdə suisidal davranışa cəhd və ya birbaşa suisidal davranış aktı üçün zəmin yaradır. Ümumiyyətlə, yeniyetmələrdə suisidal davranışa meyllilıyin psixoloji

xüsusiyyətləinin öyrənilməsini şərtləndirən bir neçə xüsusiyyət mövcuddur. Koqnitiv inkişafın hələ tam başa çatmadığı və təlqinə həssas yaş dövründə yeniyetmənin suisidal davaranışa sürüklənməsi yetişkin insanlara görə daha sürətli və asan olur. Valideynlər və münasibət qurduğu yaxın əhatə tərəfindən adekvat qiymətləndirilməməsi suisidal davranış əlamətlərini ortaya çıxara biləcək səbəblərdən biridir. Ortaya çıxan depressiv vəziyyətin simptomları, özünə qapalılıq və ünsiyyətdən qaçış hallarının, "mənasız" vəziyyət kimi dəyərləndirilməsində baş verən dərinləşmələr, nəticədə suisidal davranışa cəhdin yaranmasına zəmin yaradır. Pedaqoji fəaliyyətlə məşğul olan insanlar, müəllimlər, tərbiyəçilər, uşaq birliyi rəhbərləri və s. kimi peşə sahibləri yeniyetmələrin suisidal davranışa meyilliliyi haqqında və onlarda özünü göstərən davranış xüsusiyyətləri haqqında zəruri biliklərə malik deyillər və maarifləndirici işlər yetərincə deyil . Yeniyetmələrin məktəbdə olan münasibətlərini də xüsusilə qeyd etmək lazımdır. Sinif yoldaşları ilə konfliktli vəziyyət, müəllimlərin tənqidinə məruz qalma, təlimdə ortaya çıxan problemlər, qrupdaxili təzyiq fenomeni, qarşı cinsə yönəlik yaranan qarşılıqsız maraq və s. yeniyetmənin hələ tam formalaşmamış psixikasını zədələyir və bu halda suisidal davranışa meyllilik artır. Hal-hazırda orta məktəblərdə ən çox rastlanan problemlərdən birisi də məktəblilərin yaşıdları tərəfindən bulinqə məruz qalmasıdır. Bullinq UNICEF-ə görə bullinq (ing. bullying) uşaqların incidilməsinə səbəb olan ixtiyari və təkrar olaraq törədilmiş aqressiv davranışdır. Bullinqin(zorakılığın) aşağıdakı növləri var; kiber, sosial, şifahi, psixoloji və fiziki zorakılıq. Hər birisinin izahına nəzər salaq.

Kiber bullinq - Statistika müasir dövrümüzdə bu növ zorakılığın daha çox artdığını göstərir. Sosial şəbəkələr və mesajlar vasitəsilə insanları alçaltmaq, qorxutmaq, hesablarının sındırılması kiber zorakılığa aid edilir.

Fiziki bullinq - Bu bütün cəmiyyətlərin ən ciddi problemidir. Yalnız qurbana deyil, eyni zamanda digər şagirdlərə də təsir göstərir. Fiziki bullinqə vurmaq, itələmək, qəsdən toxunmaq, tüpürmək, şagirdin əşyalarının oğurlanması və s. daxildir.

Şifahi bullinq - Qorxutmaq, sözlərlə alçaltmaq, adına ləkə yaxmaq şifahi bullinq sayılır.

Sosial bullinq - Şəxsin hansısa qrupdan kənarlaşdırılması, sinifdən təcrid edilməsi, ona qarşı qruplaşma yaratmaq bullinqin sosial növünə aiddir.

Bullinqin təsiri ilə baş verən intihar hadisələrinə aid bağlı statistikaya nəzər salaq. CDC-dən (Xəstəliklərin idarə edilməsi və qarşısının alınması üçün mərkəzlərdən) əldə edilən nəticələrə görə, intihar gənclərin ölüm səbəbləri arasında üçüncü yeri tutur. İl ərzində təxminən 4 400 nəfər. Məktəb şagirdlərinin 14%-dən çoxu intihar haqqında düşünür, təxminən 7%-i isə buna cəhd edir. Yale Universiteti tərəfindən aparılan araşdırmalara görə, bullinqə məruz qalan insanların intihar etmə ehtimalı digər şəxslərə nəzərən 2-9 dəfə çoxdur. İngiltərədəki tədqiqatlar göstərir ki, gənclər arasında baş vermiş intiharların ən az yarısının bullinqlə əlaqəsi var. Yuxarıda qeyd etdiyimiz araşdırmaya görə, 10-14 yaş arası qız uşaqlarının intihar riski daha yüksəkdir. ABC News-un bildirdiyi statistikalara görə şagirdlərin təxminən 30%-i bullinqə məruz qalır. Hər gün 160 000 uşaq bullinq qorxusuna görə məktəbə getmir. Araşdırmalardan da gördüyümüz kimi zorakılıq davranışlarına məruz qalan yeniyetmələr çarəni intiharda görürlər.

Bir sıra tədqiqatçılar [Castels, M., Van Harmelen, AL, Neufeld və b.] göstərirlər ki, 14 yaşdan başlayaraq ailə mühitinin yaxşılaşdırılması suisidal risklərin yeniyetmələr üçün azalmasına səbəb ola bilər. Onlar hesab edirlər ki, məhz ailə mühiti suisidal davranışa zəmin yaradır. Bununla bağlı ən əsas məsələlərdən birisi də erkən körpəlikdə ana ilə qurulan bağlanma formasıdır. Boulbiyə görə bağlanma başqa bir insanla emosional bir əlaqədir. Bağlanma nəzəriyyəsi isə ilk baxıcı ilə qurulan bağdan başlayaraq bütün sosial münasibətlərə diqqət yetirir. Bağlanma, Con Boulbinin fikrincə, "insanlar arasında davam edən psixoloji bağlılıqdır". Körpələr dünyanı araşdırmaq və həyatda təhlükəsizlik hissini təmin etmək üçün təhlükəsiz bazaya ehtiyac duyurlar. Deməli, bağlılığın təyinedicisi qida deyil, diqqət və həssaslıqdır. Niyə əlaqəyə ehtiyacımız var? Boulbinin fikrincə, bağlılığın təkamül tarixi var. Onun sözlərinə görə, baxıcı körpənin təhlükəsizliyini və qorunmasını təmin etməlidir. Bağlanma, təkamül nəzəriyyəsini nəzərdən keçirərkən, baxıcı ilə qurduğu bağ sayəsində körpənin sağ qalma şansının artması

deməkdir. Əslində qurulan bu sosial münasibət bioloji ehtiyacdır. Boulbiyə görə, körpələr stress altında olduqları zaman baxıcıları ilə yaxınlıq axtarmağa ehtiyac hiss edirlər. 0-5 yaş bağlanma əlaqəsi üçün kritik bir dövrdür. Bu əlaqə gələcək bütün sosial münasibətlər üçün prototip rolunu oynayır. Əgər 0-5 yaş arasında etibarlı bağlılıq yaranmayıbsa, gələcək həyat buna uyğun formalaşacaq. Güvənsiz bağlanma yaşayan uşaqlar gələcəkdə yüksək kortikol səviyyələri, depressiya, həyəcan, anksiyete, intihara meyilli olmaqla, qida meyil pozuntuları və alkoqolizmlə əlaqəli problemlərlə üzləşirlər. Yüksək kortikol səviyyəsinin eyni zamnada yuxu prosesinə də mənfi dərəcədə təsir etdiyi araşdırmalarla sübut olunmuşdur. [8]

Emosional əlaqəyə olan ehtiyacın vacibliyini Harri Harlounun yeni doğulmuş meymunlar üzərində apardığı yalançı ana təcrübəsi ilə izah edə bilərik. Harlou biri dəmirdən və bir şüşə süddən, digəri isə yumşaq və isti dəsmaldan hazırlanmış, lakin yemək verməmiş 2 ayrı ana fiqurunu yerləşdirmiş və meymunların hansı fiqura gedəcəyini müşahidə etmişdir.Meymunlar qidalanmaq üçün dəmir ananın yanına getməyi üstün tutsalar da, eksperimental otaqda qorxunc səs stimulu yerləşdirildikdə, yeni doğulmuş meymunlar təhlükədən qaçmaq üçün yumşaq və isti dəsmaldan hazırlanan ana fiquruna getməyə üstünlük verdilər. Təhlükədən sağ çıxmaq üçün meymunlar instinktiv olaraq yemək verən soyuq ana fiqurundan (onlara güvən verən) isti ana fiquruna üstünlük verdilər. Boulbi tərəfindən də bəhs edilən bu davranış, sağ qalma şansımızı artırmaq üçün bağlanmanın zəruriliyini göstərir. Buna görə təəccüblü deyildir ki, uşağın emosional ehtiyacları qarşılanmadıqda, özünü kiçik və əhəmiyyətsiz hiss edir, varlıqlarının çox dəyərli olmadığına inanırlar, buna görə də ətraflarında insanlarla əlaqə qurmaqdan uzaqlaşırlar. Zamanla içə qapanıq olub, assosiallaşırlar. Emosional yaxınlıqdan məhrum olan yeniyetmələrin əlamətlərinə aşağıdakıları qeyd edə bilərik:

Özünü anlaşılmaz və yalnız hiss etmək, davamlı üz asmaq, sıx-sıx incinmiş və hirsli hiss etmək, tez-tez passiv-aqressiv davranmaq, onlarla yaxınlaşmağa çalışan şəxslərə soyuq münasibət bəsləmək, ünsiyyətdən qaçmaq.

Aşağıdakı ifadələri emosional yaxınlıqdan uzaq qalan yeniyetmələrdən eşitmək mümkündür.

- ✓ Məsləhət ala biləcəyim insanlar yoxdur.
- ✓ Emosional ehtiyaclarımın qarşılanmasını heç kimdən gözləmirəm.
- ✓ Mənə heç vaxt emosional yardım göstərilməyib.
- ✓ Hisslər və duyğularım uşaqlığımda heç vaxt təsdiqlənməyib.
- ✓ Həyatımda bir boşluq hiss edirəm, amma bunun nə olduğunu bilmirəm .
- ✓ Mən heç vaxt kiməsə emosional bağlılıq hiss etməmişəm.
- ✓ Mən öz hisslərimi və ehtiyaclarımı dərk edə bilmirəm.
- ✓ Həyatımda heç kim məni emosional olaraq təsəlli etməyib.
- ✓ Mən nadir hallarda öz qüsurlarımı başqaları ilə paylaşıram.

Onilliklər ərzində aparılan araşdırmalardan bilirik ki, emosiyalar qərarları, öyrənməni, yaradıcılığı, münasibətləri və sağlamlığı idarə edir. Tədqiqatlar yüksək emosional zəka ilə azalmış depressiya, narahatlıq və artan sosial bağlılıq arasında müsbət əlaqəni dəstəkləyir və bununla da bu bacarıqlarda açıq təhsil üçün güclü zəmin yaradır. 11-15 yaşlı gənc yeniyetmələr xüsusilə stress, depressiya və intihar yoluxma və düşüncələrinə qarşı həssasdırlar. Araşdırmalar göstərir ki, yetkinlik dövründə yaranan beyin dəyişiklikləri yeniyetmələri xüsusilə emosional və sosial dünyalarına çox həssas edir. Limbik sistem, emosiyaların və sosial məlumatların işlənməsi ilə məşğul olan beynin sahəsi, uşaqlıq və ya yetkinlik dövründəkindən daha aktivdir. Yeniyetmələr ətraflarından gələn emosional girişi daha sürətli emal edirlər və başqalarının reaksiyalarına çox həssasdırlar: Hətta, neytral ifadə onların emosional neyron şəbəkələrini işıqlandıra bilər. Və onlar başqa yaşlara nisbətən yeniyetməlik dövründə stressə daha həssasdırlar. Yeniyetməlik dövründə beynin daha uzaq bölgələri birləşir ki, bu da yeni növ fikir və ideyaların yaranmasına səbəb olur, lakin onlar da perspektiv və təcrübədən məhrumdurlar. Prefrontal korteksin düşüncə və düşünmə sahələri ilə emosiya bölgələri arasındakı əlaqə yavaş inkişaf edir - hərəkət etməzdən əvvəl düşünməyi çətinləşdirir.[10] Bütün bu dəyişikliklər, ən yaxşı halda, yetkinliyə doğru coşqun bir sürətlənmə

təklif edir. Ancaq stresli və dəstək olmayan bir mühitdə dəyişikliklər yeniyetmələri relsdən çıxmağa daha həssas edə bilər. Məktəblər gənclərə elmi mənimsəmək üçün strategiya və bacarıqları öyrədir, lakin onların həyat uğurlarını ən çox proqnozlaşdıran emosional gücdən istifadə etmək və yönləndirmək bacarığını öyrətmir. Emosional zəka hissləri tanımaq, anlamaq, etiketləmək, ifadə etmək və tənzimləmək kimi xüsusi bacarıqların öyrənilməsini özündə birləşdirir. Məktəblərdə tədris olunduqda şagirdlər arasında, şagirdlərlə böyüklər arasında isti hisslər, inam və yaxınlıq hissi yaradır, həm də zorakılıq və təqib hallarını azaldır. Biz bilirik ki, ailə və dostlara bağlılıq hissi - aidiyyət hissi intihar riskini kəskin şəkildə azaldır. Tədqiqatlar göstərir ki, emosional cəhətdən bacarıqlı insanlar başqaları ilə daha yaxşı və güclü əlaqələrdən zövq alırlar və bu bacarıqların çoxunu uğurla öyrətmək olar.

Hazırda Rusiya Federasiyası intihar riski üzrə yüksək səviyyəli ölkələr qrupuna daxildir. Federal Dövlət Statistika Xidmətinin məlumatına görə, ölənlərin sayı 2016-cı ilin aprelinə intiharlar əhalinin hər 100 min nəfərinə 15,4 min təşkil edib. 2017-ci ildə Perm region intiharların sayına görə Rusiya regionları siyahısında dördüncü olub. Rrisk qrupunda intihara valideyn himayəsindən məhrum olan yeniyetmələr daxildir. Yeniyetməlik dövründə emosional-şəxsi sfera əsas mövzulardan biridir. Praktikada və elmdə çoxsaylı müzakirələr var və davam etməkdədir. Yeniyetmə davranışına, emosional və şəxsi inkişafına təsir edən bir çox amillər var. Müasir yeniyetmə subkulturası, həmyaşıdları və böyüklərlə münasibətləri, sosial mühit, ailənin varlığı və ya olmamasını misal göstərə bilərik. Uşağa birinci dərəcədən ən yaxın olan ailə üzvləri uşağın sevilmə, qəbul, hörmət, dəstək, tanınma, qorunma və digər emosional ehtiyaclarını ödəyir. Bir çox müəlliflər uşaqların zehni inkişafında valideyn münasibətinin həlledici rolu olduğunu vurğulayırlar (A.Ya.Varqa, A.İ. Zaxarova, O.A.Karabanova, M.İ. Lisina, A.S. Spivakovskaya, E.G. Eidemiller, V. Yustikis və başqaları) [Karabanova, 2005]. Yeniyetməlik öz-özlüyündə kritik yaşdır və yeniyetmələr üçün valideynləri ilə məhrumiyyətlər daha da problemlidir. Valideynlərin olmaması birbaşa psixoloji travma yaradır. Yetimlərdə zəif emosional sahə olması ilə bərabər eyni zamanda zehni inkişafın daha yavaş tempi aşağı səviyyə ilə xarakterizə olunur. İntellektual inkişaf, zəif təxəyyül, daha sonra özünütənzimləmə bacarıqlarının formalaşdırılması valideyn məhrumiyyəti təcrübəni çətinləşdirir. Bütün burada yazılan məlumatlardan görə bilərik ki, yeniyetmənin psixi və psixoloji sağlam yetişə bilməsi və həyatını şövqlə davam etdirmə arzusunun olomasında ailə və məktəb həyatının rolu qaçılmazdır.

**Nəticə**

Yeniyetmələrin psixi və psixoloji sağlam yetişə bilməsi və həyatını şövqlə davam etdirmə arzusunun olmasında ailə və məktəb həyatının rolu qaçılmazdır. Ailədə sağlam emosional mühitin olması, uşağın özünü dərk etməsinə, öz hisslərini və digərlərinin hisslərini anlamasında, müşkül situasiyalarda problemə deyil həllə köklənməsində çox əhəmiyyətli rolu vardır. Eyni zamanda məktəb həyatına başlayan uşaq sağlam məktəb mühiti, sağlam müəllim, həmyaşıd münasibətləri içərisində olmadıqda intihara təşəbbüs etməyə meyilli olur. Sonda müəllif belə bir nəticəyə gəlir ki, yeniyetmələrdə suisidal davranışa meyilliliyin psixoloji xüsusiyyətlərinə ilk başda ailədə yaranan emosional laqeydlik və zorakılığa məruz qalan məktəb mühiti mühüm amil hesab edilir. Bu səbəblə də yeniyetmələrdə suisidal meyilliliyin psixoloji xüsusiyyətləri kimi ailə münasibətləri və məktəb mühitində yaranan münasibətlərin araşdırılması əsas görülmüşdür.

## ƏDƏBİYYAT SİYAHISI:

1. N.V.İsmayılov. Psixiatriya. Bakı, 2013 - s. 45
2. Suisidal davranış və ona müxtəlif yanaşmalar // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri - 2015, № 2,- s. 49-52. 2. Yeniyetmələrdə suisidal davranışa meylliliyin psixoloji məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri - 2015, № 4,- s.71-73
3. Yeniyetmələrdə suisidal davranışa meylliliyin psixoloji məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri - 2015, № 4,- s.71-73
4. Yeniyetmələrdə suisidal davranışın xüsusiyyətləri və təzahürləri//Psixologiya jurnalı, 2017, № 1, -s.80-94 http://psixologiyajurnali.az/content_files/psixologiya_2017-1.pdf
5. Yeniyetmələrdə suisidal halların psixoprofilaktikası yolları / Ankara Uluslararası bilimsel

araştırmalar konqresi 04-06 ekim, 2019, Ankara, -s.277-278 https://www.academia.edu/40689170/INTERNATIONAL_ANKARA_CONFERENCE_OF_SCIENTIFIC_RESEARCH_ÖZET_ KİTABI_Abstract_Book

6. Goldston D.B., Kovacs M., Ho V.Y. et al. Suicidal ideation and suicide at-tempts among youth with insulin-dependent diabetes mellitus // Journal of the American Academy of Child and Adolescent Psychiatry. 1994. Vol. 33 (2). P. 240—246.
7. Goldstein T.R., Bridge J.A., Brent D.A. Sleep disturbance preceding completed suicide in adolescents // Journal of Consulting and Clinical Psychology. 2008. Vol. 76(1). P. 84—91.
8. Jasmin Lee Cori, Annenin duygusal yokluğu. Istanbul 2021- s. 75-85
9. Psychology. Historical-critical Reviews and Current Researches. 2018, Vol. 7, Is. 2A.
10. Robin Stern, PhD, and Diana Divecha, PhD,Emotional Intelligence Education Has a Role in Suicide Prevention | by Thrive Global | jun8, 2017 Thrive Global | Medium, Emotional Intelligence Education Has a Role in Suicide Prevention | by Thrive Global | Thrive Global | Medium

**Биллура Черкез кызы БАЙРАМОВА**
*Западно-Каспийский университет,*
*кафедра политологии, психологии и социологии, магистр*
E-mail: billurebayramova@gmail.com

## ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ СУИЦИДАЛЬНОГО ПОВЕДЕНИЯ ПОДРОСТКОВ

**Резюме.** В представленной статье автор рассмотрел психологические особенности склонности к суицидальному поведению у подростков. В статье акцентируется внимание на отношениях в семье и школе, которые могут привести к суицидальному поведению. Понятно, что все начинается с семьи. Семейные отношения могут увеличить или уменьшить любовь человека к жизни. Как продолжение этого процесса, школьная жизнь представляет собой среду, сильно влияющую на психологию подростков. В статье на основе обзора литературы проведен анализ актуальных вопросов, связанных с влиянием семейно-школьных отношений на склонность подростков к суицидальному поведению. Отечественные и зарубежные психологические исследования показывают, что большую роль в склонности человека к суицидальному поведению играют семейная жизнь и школьная среда.
**Ключевые слова**: суицидальное поведение, семья, подросток, эмоциональность, привязанность, школа

**Billura Cherkez BAYRAMOVA**
*Western Caspian University,*
*Department of Politology, Psychology and Sociology, Master*
Email: billurebayramova@gmail.com

## PSYCHOLOGICAL CHARACTERISTICS OF SUICIDAL BEHAVIOR IN ADOLESCENTS

**Abstract.** In the presented article, the author discussed the psychological characteristics of the tendency to suicidal behavior in teenagers. The article focuses on family and school relationships that can lead to suicidal behavior. Obviously, everything starts with the family first. Family relationships can increase or decrease a person's love for life. As a continuation of this process, school life is an environment that strongly influences adolescent psychology. In the article, the analysis of current issues related to the influence of family and school relations on the adolescent's tendency to suicidal behavior was carried out based on the literature review. Domestic and foreign psychological studies show that family life and school environment play a major role in a person's tendency to suicidal behavior.
**Key words**: suicidal behavior, family, adolescent, emotional, attachment, school
**Daxil olub:** 02.05.2023.